

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Nazçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 133 (21.034)

15 iyul 2014-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 13-də İtaliya Respublikasına rəsmi səfərə getmişdir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 13-də Romadakı məşhur "Villa Borghese" parkında dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin abidəsini ziyarət etmiş, önünə gül dəstəsi qoymuşdur.

* * *

İyulun 14-də Romada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İtaliya Respublikasının Prezidenti Corco Napolitanonun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

Dövlətimizin başçısı İtaliya Prezidentinin sarayına gəldi.

Sarayın həyətində Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan nümayəndə heyətinin üzvləri Prezident Corco Napolitanoya, İtaliyanın rəsmi şəxsləri Prezident İlham Əliyevə təqdim edildi.

Prezidentlər rəsmi foto çəkdirdilər.

Sonra dövlət başçılarının geniş tərkibdə görüşü oldu.

Görüşdə Azərbaycan ilə İtaliya arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığın uğurlu inkişafından məmnunluq ifadə edildi. Ölkələrimiz arasında əlaqələrin Avropa İttifaqı-Azərbaycan əməkdaşlığı baxımından önəmi vurğulandı. Azərbaycanın Avropa Şurasında, İtaliyanın Avropa İttifaqında sədrliyi dövründə səylərin əlaqələndirilməsinin vacibliyi qeyd edildi.

Söhbət zamanı energetika sahəsində əməkdaşlığın uğurlu inkişafı vurğulandı, ölkələrimizin beynəlxalq təşkilatlarda bir-birinə qarşılıqlı dəstək verdiyi bildirildi.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Azərbaycan-İtaliya ikitərəfli münasibətlərinin müxtəlif aspektləri və qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı ətraflı fikir mübadiləsi aparıldı.

## "Rəşadətli əməyə görə" nişanı ilə təltif haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında televiziya işində səmərəli fəaliyyətlərinə görə:

İsayev Yaqub Adil oğlu

Məmmədov Seymur Bahadur oğlu

Rzayev İlkin Əvəz oğlu – **"Rəşadətli əməyə görə"** nişanı ilə təltif edilsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 12 iyul 2014-cü il*

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində orden, medal və fəxri adların təqdimat mərasimi olmuşdur

İyulun 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2-ci və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenlərinin, "Dövlət qulluğunda fərqlənməyə görə", "Tərəqqi", "Hərbi xidmətlərə görə" və "Vətən uğrunda" medallarının, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarının təqdimat mərasimi keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov təltif olunanları dövlətimizin ali mükafatlarına layiq görülmələri münasibətilə təbrik edərək demişdir: "1969-cu ilin 14 iyulu Azərbaycan xalqının həyatında dönüş tarixidir. Bu tarix, sadəcə, bir rəhbərin siyasi hakimiyyətə gəliş tarixi deyil, xalqımızın həyatında dönüş günüdür. Ümummilli liderimiz Heydər Əliyev 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməklə Azərbaycan keçmiş Sovetlər Birliyinin aqrar ölkəsindən inkişaf etmiş sənaye respublikasına çevrilmiş, xalqımızın rifahı yüksəldilmişdir".





Ali Məclisin Sədri demişdir: "İstər Sovetlər Birliyi dövründə, istərsə də müstəqillik illərində ümummilli liderimizin müəyyənləşdirdiyi siyasi xətt Azərbaycana inkişaf, tərəqqi və sabitlik gətirmişdir. Ulu öndərin yolunun davam etdirilməsinin nəticəsidir ki, Azərbaycanda sosial-iqtisadi inkişaf təmin edilmiş, dövlət-xalq birliyi yaranmışdır. Bu gün Azərbaycan dünyanın inkişaf etmiş ölkələri ilə bir sırada dayanan və öz mövqeyini daim möhkəmləndirən bir dövlətdir".

"Sabitlik, dövlət-xalq birliyi və vətənpərvər insanların olması hər bir ölkənin inkişafında başlıca şərtdir", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, bu gün Azərbaycanın sürətli inkişafında bu üç amil əsas götürülür. Ümummilli liderimizin müəyyənləşdirdiyi yolun ölkə Prezidenti tərəfindən müasir tələblər nəzərə alınmaqla davam etdirilməsi Azərbaycanı yeni inkişaf mərhələsinə çıxarmışdır. Ölkə vətəndaşlarının əməyi olmadan bu inkişafı təmin etmək mümkün deyil. Qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirən, dövlətinə və xalqına sədaqətlə xidmət edən vətənpərvər insanların əməyi isə daim yüksək qiymətləndirilir, onlar ölkəmizin müxtəlif orden, medal və fəxri adları ilə təltif olunurlar. Bu gün təltif olunanlar da müxtəlif sahələrdə çalışaraq öz əməkləri ilə nümunə göstərən, ölkəmizin ümumi inkişafında fərqlənən insanlardır.



Ali Məclisin Sədri təltif olunanları ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda ali hakimiyyətə gəlişinin 45-ci ildönümü və əməklərinin yüksək qiymətləndirilərək orden, medal və fəxri adlara layiq görüldüklərinə görə bir daha təbrik etmiş, onlara fəaliyyətlərində uğurlar arzulamışdır.

Sonra Ali Məclisin Sədri medalların və fəxri adların döş nişanlarını və vəsiqələrini təqdim etmişdir.

Təltif olunanlardan İlkin Əsədov, Rəvayət İmanov, Məsum Səfərov, Vaqif Mahmudov, İlham Cəfərov, İbrahim Məmmədov, Bəhriyyə Əliyeva, Kərəm Mustafayev, Əbülfəz Mahmudov, Cəlil Rüstəmov, Ramilə Seyidova, Şərafəddin Şükürov, Arif Rzayev və Əli Mahmudov əməklərinə verilən yüksək qiymətə görə minnətdarlıq edərək demişlər ki, əsası 1969-cu ildə qoyulan Heydər Əliyev siyasi xətti bu gün ölkəmizin, eləcə də muxtar respublikamızın kompleks inkişafına səbəb olmuşdur. Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə uğurlu nailiyyətlər qazanılmaqdadır. Son illər abadlıq-quruculuq işləri geniş vüsət almış, sosial-iqtisadi həyatın bütün sahələrində dinamik inkişafa nail olunmuşdur. Bu inkişafda payı olanların əməyinin yüksək qiymətləndirilməsi ikiqat qürur və şərəfdir.

Təltif olunanlar bundan sonra da ümummilli liderimizin siyasi xəttinə sadiq qalacaqlarına, doğma diyarımızın inkişafı və tərəqqisi yolunda səylə çalışacaqlarına söz vermişlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

İyulun 14-də dövlət qulluqçularının andiçmə mərasimi keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada keçirilən müsabiqəni uğurla başa vurmuş və müvafiq dövlət orqanlarında işə başlamış

## Dövlət qulluqçuları and içiblər



91 nəfər Azərbaycan Respublikasına sadiq olacaqlarına, onun Konstitusiyasına dönmədən əməl edəcəklərinə, dövlət sirrini və xidməti sirri qoruyacaqlarına, dövlət qulluğunun onlara verdiyi hüquqları və üzərlərinə qoyduğu vəzifələri qərəzsiz, vicdanla, yalnız qanunauyğun surətdə və dövlətin mənafeyi naminə həyata keçirəcəklərinə and içiblər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın sədri Etibar Musayev dövlət qulluqçularını təbrik edərək bildirib ki, müasir dövrdə kadrlarla işin yeni hüquqi bazasını yaratmaq məqsədilə ölkəmizdə, eləcə də muxtar respublikamızda bir sıra tədbirlər həyata keçirilir. Təbii ki, digər sahələr kimi, dövlət qulluğunun da öz prinsipləri vardır. Bunlardan ən başlıcası qanunun aliliyinin qorunmasıdır. Komissiya sədri dövlət qulluqçularına bu şərəfli işlərində müvəffəqiyyətlər arzulayıb.

Sonra tədbir iştirakçıları Heydər Əliyev Muzeyini ziyarət ediblər.

## "Kanal-35" televiziyasının on illik yubileyi qeyd olunub

*İyulun 14-də "Kanal-35" televiziyasının fəaliyyətə başlamasının onuncu ildönümü münasibətilə tədbir keçirilib.*

Tədbirdən əvvəl Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin və televiziyanın əməkdaşları ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanındakı abidəsi önünə gül dəstələri qoyaraq Heydər Əliyev Muzeyini ziyarət ediblər.

Sonra tədbir Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyində davam etdirilib. Əvvəlcə televiziyanın on illiyindən bəhs edən film nümayiş olunub. Naxçıvan Muxtar Respublikasının rabitə və informasiya texnologiyaları naziri Rövşən Məmmədov giriş sözü ilə çıxış edərək televiziya əməkdaşlarını yubiley münasibətilə təbrik edib.

Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi Radio-Televiziya Ötürücü Mərkəzinin rəisi Rəşad Həsənov çıxışında bildirib ki, "Kanal-35" televiziyası ümummilli liderimiz Heydər Əliyevin siyasi hakimiyyətə gəlişinin 35 illiyi münasibətilə 2004-cü ilin 14 iyul tarixində Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Radio-Televiziya Ötürücü Mərkəzinin nəzdində fəaliyyətə başlayıb. Bu tarix bizə ona görə əzizdir ki, 1969-cu ilin bu günü ümummilli lider Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə gəlib. Dahi rəhbərin hakimiyyətə gəlişi ilə ölkəmizdə milli, mədəni, iqtisadi, siyasi yüksəlişin təməli qoyulub. "Kanal-35" televiziyasının yaradılması ulu öndərə böyük ehtiramın ifadəsidir.

Qeyd olunub ki, müasir texniki avadanlıqlarla təchiz edilmiş "Kanal-35" televiziyası fəaliyyətinə 10 saatlıq efir vaxtı ilə başlayıb. Sonra bu müddət 14 saatlıq yayıma qədər artırılıb.

1 yanvar 2008-ci il tarixdən "Kanal-35" televiziyasının və "Naxçıvanın səsi" radiosunun vahid mərkəzdən idarə edilməsi məqsədilə Radio-Televiziya Ötürücü Mərkəzinin nəzdində Televiziya və Radio Verilişləri Redaksiyası yaradılıb. Həmin ildən "Kanal-35" televiziyasının arxivindəki əcnəbi dillərdə olan materialların tərcüməsinə başlanılıb. Efirdə yalnız Azərbaycan dilində olan bədii, sənədli, elmi-



kütləvi və televiziya filmlərinin nümayişinə nail olunub. 2008-ci ilin yanvar ayından bu günədək redaksiya tərəfindən 605 adda film tərcümə edilib, onlardan 597-si dublyaj olunaraq yayımlanıb.

Radio-Televiziya Ötürücü Mərkəzinin nəzdində Televiziya və Radio Verilişləri Redaksiyasının baş redaktoru İlkin Rzayev çıxışında bildirib ki, bu gün televiziyanın əsas prioritet yayım prinsipləri elmi-publisistik verilişlərin, maarifləndirici informasiyaların, məlumatlandırıcı xarakterə malik filmlərin yayımının həyata keçirilməsidir. İlk yayım dövründən başlayaraq öz fəaliyyətini bu prinsip üzərində quran televiziya muxtar respublika teleməkanında böyük tamaşaçı auditoriyası qazanıb.

Bildirilib ki, ötən müddət ərzində televiziyanın arxiv fondunun təkmilləşdirilməsi sahəsində də ciddi işlər görülüb, xüsusi arxiv proqramı vasitəsilə videomaterialların qeydiyyatı və tənzimlənməsi həyata keçirilib.

Tədbirdə "Naxçıvanın səsi" radiosunun müxbirləri Çinarə Cabbarovanın və Rəmzi Əlizadənin çıxışları olub.

Sonda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 12 iyul tarixli Sərəncamı ilə səmərəli fəaliyyətlərinə görə təltif edilmiş televiziyanın əməkdaşları Yaqub İsayevə, Seymur Məmmədova və İlkin Rzayevə "Rəşadətli əməyə görə" nişanları təqdim olunub. Təltif edilənlər əməklərinə verilən yüksək qiymətə görə Ali Məclisin Sədrinə minnətdarlıqlarını bildiriblər.

## 2014-cü ilin ilk 6 ayının yekunları müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib



***İyulun 14-də Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi Rəyasət Heyətinin iclası keçirilmiş, iclasda 2014-cü ilin birinci yarısında muxtar respublika məhkəmələrinin fəaliyyəti müzakirə olunmuşdur.***

İclası giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl islahatlardan söhbət açmış, sonra 2014-cü ilin birinci yarısında muxtar respublikada ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyəti ilə bağlı məruzə ilə çıxış etmişdir.

Muxtar respublika məhkəmələri tərəfindən vətəndaşların hüquq və azadlıqlarının təmin olunması sahəsində, habelə əhalinin hüquqi maarifləndirilməsi istiqamətində görülən işlər barədə məlumat verən Ali Məhkəmənin sədri bildirmişdir ki, əvvəlki illərdə olduğu kimi, cari ilin birinci yarısında da Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişaf etdirilməsi, məhkəmə orqanlarının fəaliyyətinin müasirləşdirilməsi istiqamətində mühüm addımlar atılmış, məhkəmələrin fəaliyyətində yeni informasiya və kommunikasiya texnologiyalarının tətbiq olunması ilə bağlı bir sıra işlər həyata keçirilmişdir.

Ali Məhkəmənin sədri Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" 2011-ci il 15 iyul tarixli Fərmanından irəli gələn vəzifələrin icrası ilə bağlı Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsində görülən işlərdən də söhbət açmış, məhkəmə qərarlarının axtarış sistemli vahid elektron bazasının təkmilləşdirilməsindən, məhkəmənin elektron kitabxana bazasının qanunvericilik aktları və yeni hüquq ədəbiyyatları ilə zənginləşdirilməsindən bəhs etmiş, həyata keçirilən tədbirlərin insan hüquq və azadlıqlarının təmin olunmasına yönəldiyini bildirmişdir.

Sonra muxtar respublikanın ixtisaslaşdırılmış, şəhər və rayon məhkəmələrinin sədr və hakimlərinin cari ilin birinci yarısında gördükləri işlərə dair məlumatları dinlənilmişdir.

İclasa Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov yekun vurmuşdur.

* * *

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyində dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyasından irəli gələn vəzifələrə və cari ilin ilk 6 ayında kənd təsərrüfatı sahəsində görülən işlərin yekunlarına həsr olunmuş kollegiya iclası keçirilmişdir. İclası kənd təsərrüfatı naziri Elşad Əliyev açaraq məruzə ilə çıxış etmişdir.***

Bildirilmişdir ki, bəhs olunan dövrdə nazirlik tərəfindən "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nın, "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın müvafiq bəndlərinin icrası istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilmişdir.

Belə ki, aparılan meliorasiya-irriqasiya tədbirləri, lizinq xidməti, yanacaq-sürtgü yağlarına görə məhsul istehsalçılarına yardımların ödənilməsi, istifadə olunan gübrələrin 50 faizinin pulsuz verilməsi, toxumçuluq və tingçiliklə məşğul olan təsərrüfatlara subsidiyaların ödənilməsi, taxılqəbuledən və soyuducu anbarların yaradılması, meyvə-tərəvəz emalı müəssisələrinin işə salınması kənd təsərrüfatının inkişafına stimul olmuşdur.



Vurğulanmışdır ki, ötən dövr ərzində nazirliyin Bitkilərin mühafizəsi və karantini şöbəsi və Bitki Mühafizə Stansiyası tərəfindən kənd təsərrüfatı bitkilərinin xəstəlik və zərərvericilərinə qarşı mübarizə aparmaq məqsədilə muxtar respublikaya dərman preparatları gətirilərək pulsuz olaraq torpaq mülkiyyətçilərinə paylanılmış, 6300 hektar sahədə kimyəvi mübarizə tədbirləri təşkil edilmişdir.

Birinci yarımil boyunca əkin sahələrindən bol və keyfiyyətli məhsul götürülməsi, payızlıq və yazlıq əkinlərin üzvi və mineral gübrələrlə aqrotexniki qaydalara uyğun gübrələnməsi üçün fermer və torpaq mülkiyyətçilərinin iştirakı ilə maarifləndirici tədbirlər keçirilmişdir.

Məruzə ətrafında müzakirələrdə Akademik Həsən Əliyev adına "Araz" Elm-İstehsalat Birliyinin baş direktoru Bəhruz Bayramovun, Layihə Axtarış Kimyalaşdırma Stansiyasının direktoru Məhəmməd Qaybalıyevin, Dövlət Toxum Müfəttişliyinin rəis əvəzi Xaliq Abbasovun, Bitki Mühafizə Stansiyasının rəisi İlqar İbrahimovun çıxışları olmuşdur.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində də cari ilin birinci yarısının yekunları müzakirə edilmişdir. Bununla bağlı keçirilən tədbiri əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov açaraq məruzə ilə çıxış etmişdir.***

Bildirilmişdir ki, ötən müddət ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli sərəncamları ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın və "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı"nın icrası diqqət mərkəzində olmuşdur. Müvafiq dövr ərzində işaxtaran şəxslərin peşələrinə uyğun işlə təmin edilməsi məqsədilə aktiv məşğulluq tədbirləri həyata keçirilmişdir. Məşğulluq xidməti orqanlarına müraciət edən 1357 nəfər qeydiyyatda olan vakansiyalar üzrə iş yerlərinə göndərilmiş, işaxtaran vətəndaşların müvəqqəti məşğulluğunu təmin etmək məqsədilə 129 nəfər sosial əhəmiyyətli haqqıödənilən ictimai işlərə cəlb edilmiş, sosial müdafiəyə ehtiyacı olan 58 şəxs kvota yerlərinə göndərilmişdir.

Qeyd olunmuşdur ki, rayon (şəhər) məşğulluq mərkəzləri tərəfindən keçirilmiş əmək yarmarkalarında, ümumilikdə, 519 nəfər işlə təmin olunmuş, tətil günlərində gəlir əldə etmək istəyən 27 tələbənin ixtisaslarına uyğun və mövsümi xarakterli işlərə göndərilməsi təmin edilmişdir.

Nazirin sözlərinə görə, ötən yarımil ərzində 530 tənha ahıl və sağlamlıq imkanları məhdud şəxsə sosial-məişət xidməti göstərilmiş, sağlamlıq imkanları məhdud 88 şəxsin Əlillərin Bərpa Mərkəzində, sağ-



lamlıq imkanları məhdud 166 uşağın isə Uşaq Bərpa Mərkəzində müalicəsi təşkil edilmiş, məhdud fiziki imkanlı 6 şəxsin Yunanıstan Respublikasına, sağlamlıq imkanları məhdud 6 uşağın isə valideynlərinin müşayiəti ilə Latviya Respublikasının reabilitasiya sanatoriyalarında müalicəyə göndərilməsi təmin edilmişdir. Müvafiq kateqoriyadan olan 190 nəfər müxtəlif texniki-bərpa vasitələri ilə təmin olunmuş, məhdud fiziki imkanlı 147 şəxsə səyyar protez-ortopedik xidmət göstərilmiş, sağlamlıq imkanları məhdud 40 şəxsə minik avtomobilləri təqdim edilmişdir. Sağlamlıq imkanları məhdud uşaqların asudə vaxtlarının, habelə yay mövsümündə istirahətlərinin səmərəli təşkili də diqqət mərkəzində saxlanılmış, 47 belə məktəbli uşağın valideynlərinin müşayiəti ilə Ağbulaq İstirahət Mərkəzində istirahətləri təşkil edilmişdir.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunda cari ilin birinci yarısının yekunları ilə bağlı tədbir keçirilmişdir. Tədbiri fondun sədri Rasim Hüseynov açaraq məruzə ilə çıxış etmişdir. Bildirilmişdir ki, muxtar respublika ərazisindəki təşkilati-hüquqi formasından və mülkiyyət növündən asılı olmayaraq, bütün hüquqi və fiziki şəxslərin məcburi dövlət sosial sığortasına cəlb edilməsi, əmək pensiyalarının düzgün təyinatı və ödənişlərin aparılması, eləcə də fərdi uçot sisteminin qurulması istiqamətində görülən işlər 2014-cü ilin birinci yarısında da davam etdirilmişdir. Qeyd edilən dövrdə fondun hesabına 23 milyon 237 min manat plana qarşı 28 milyon 660 min 430 manat vəsait daxil olmuşdur.

Qeyd edilmişdir ki, məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalarda mövcud olan artım muxtar respublikada əmək pensiyaları və müavinətlərin vaxtlı-vaxtında maliyyələşdirilməsinə əlverişli şərait yaratmışdır. Cari ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu büdcəsinin xərcləri 57 milyon 529 min 500 manat icra olunmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 6 milyon 730 min 489 manat çoxdur. Hesabat dövründə pensiya və müavinətlərin maliyyələşdirilməsinə 56 milyon 477 min manat vəsait yönəldilmişdir.

Vurğulanmışdır ki, bəhs edilən dövrdə fondun yerli orqanları tərəfindən 509 nəfərə yaşa görə, 297 nəfərə əlilliyə görə, 330 nəfərə ailə başçısını itirməyə görə, ümumilikdə isə 1136 nəfərə əmək pensiyası təyin edilmişdir. "Hesabat dövründə 4534 sığortaolunana sosial sığorta şəhadətnaməsi verilmişdir", – deyən Rasim Hüseynov qeyd etmişdir ki, birinci yarımilin sonuna muxtar respublika üzrə sosial sığorta şəhadətnaməsi alan sığortaolunanların sayı 149 min 183 nəfər olmuşdur.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

**Xəbərlər şöbəsi**

# Əkinəyararlı torpaq sahələri tam şəkildə əkin dövriyyəsinə qatılmışdır

***Etibarlı ərzaq təminatı muxtar respublikada iqtisadi sabitliyin və sosial dayanıqlılığın başlıca şərti, o cümlədən iqtisadi təhlükəsizliyimizin mühüm komponentlərindən biridir. Bu istiqamətdə həyata keçirilən islahatlar muxtar respublika əhalisinin keyfiyyətli ərzaq məhsulları ilə təmin olunmasını, kənd təsərrüfatının bütün sahələrinin inkişafını ön plana çıxarmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 17 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" ərzaq təhlükəsizliyi üzrə yeni inkişaf istiqamətlərini müəyyənləşdirmişdir.***

Muxtar respublikada meliorasiya-irriqasiya sistemlərinin təkmilləşdirilməsinin nəticəsidir ki, torpaqların münbitliyinin saxlanılması və yüksəldilməsi əsasında az məhsuldar və istifadəsiz torpaqlar yaxşılaşdırılmaqla əkin dövriyyəsinə cəlb edilmişdir. Su anbarlarına suyun yığılması, kollektor və drenaj şəbəkələrinin inşası və təmiri, yeni kanalların tikintisi, nasos stansiyalarının təmiri və yararsız suvarma xətlərinin yenilənməsi işləri davamlı aparılmaqla suvarma suyuna olan tələbat tam şəkildə təmin edilməkdədir. Ötən 6 ay ərzində meliorasiya işlərini yerinə yetirən müxtəliftəyinatlı müasirtipli maşın-mexanizmlər alınmış, Uzunoba Su Anbarı yenidən qurulmuş, 2 nasos stansiyası tikilmiş, 3 kəhriz təmir olunmuşdur. Bundan əlavə, muxtar respublikada çayətrafı torpaqların yuyulmasının qarşısının alınması istiqamətində davamlı olaraq sahilbərkitmə işləri aparılmaqdadır.

Aqrar sahədə nəzərdə tutulan xidmət işlərinin yerinə yetirilməsini sürətləndirmək, sahibkarların əməyini yüngülləşdirmək, onların lazımi texnika ilə vaxtında və güzəştli şərtlərlə təmin edilməsi məqsədilə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən 165 ədədi 2014-cü ilin yanvar-iyun aylarında olmaqla, cəmi 1410 ədəd müxtəliftəyinatlı kənd təsərrüfatı texnikası alınaraq muxtar respublikaya gətirilmişdir.



Muxtar respublikada iqtisadi fəaliyyətin bütün sahələri ilə yanaşı, kənd təsərrüfatının dinamik inkişafı üçün də səmərəli kredit mexanizmi formalaşdırılmışdır. 2014-cü ilin ilk 6 ayında bank və kredit təşkilatları tərəfindən kənd təsərrüfatı məhsulları istehsalçılarına 8 milyon 404 min manat həcmində kreditlər verilmişdir ki, bu da 2007-ci ilin müvafiq dövründəki göstəricidən 3,6 dəfə çoxdur. 2014-cü ilin ötən dövrü ərzində verilmiş kreditlərin 2 milyon 210 min 490 manatı və ya 26,3 faizi bitkiçilik sahəsinin payına düşmüşdür.

Ümumilikdə, 2008-ci ildən 1 iyul 2014-cü il tarixədək olan dövr ərzində muxtar respublikada bank və kredit təşkilatları tərəfindən kənd təsərrüfatı məhsulları istehsalçılarına 87 milyon 555 min manat həcmində kreditlərin verilməsi təmin olunmuşdur ki, bunun da 20 milyon 919 min manatı və ya 23,9 faizi taxılçılığın, 7 milyon 415 min manatı və ya 8,5 faizi kartofçuluğun inkişafına yönəldilmişdir.

Muxtar respublikada kənd təsərrüfatının inkişafına xidmət edən infrastrukturun, texnika parkının, səmərəli kredit təminatının və sığorta sisteminin gücləndirilməsi əkinçiliyin inkişafına əlverişli şərait yaratmışdır. 2014-cü ilin məhsulu üçün muxtar respublikada 60829 hektar sahədə əkin aparılmışdır ki, bu da bir il öncəki müvafiq göstəricidən 702 hektar, "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nın qəbulundan bir il öncəki – yəni 2007-ci ildəki müvafiq göstəricidən isə 11432,5 hektar çoxdur.

***Muxtar respublikada əkin sahəsinin dinamikası, min hektarla***




2014-cü ilin məhsulu üçün əkilmiş əkin sahəsinin 29697,7 hektarını və ya 48,8 faizini payız əkini, 26694 hektarını və ya 43,9 faizini yaz əkini, 4437,3 hektarını və ya 7,3 faizini isə əvvəlki illərin çoxillik otları təşkil etmişdir.

Əkin sahəsinin 62,2 faizini və ya yaxud 37862,7 hektarını dənli və dənli-paxlalı bitkilər, 1,7 faizini və ya yaxud 1046 hektarını dən üçün qarğıdalı, 0,4 faizini və ya 264 hektarını dən üçün günəbaxan, 4,9 faizini və ya 2962 hektarını kartof, 10,1 faizini və ya 6125 hektarını tərəvəz, 4,5 faizini və ya 2744 hektarını ərzaq üçün bostan bitkiləri, 8,9 faizini və ya 5388 hektarını cari ilin çoxillik və birillik otları, 7,3 faizini və ya 4437,3 hektarını isə əvvəlki illərin çoxillik otları təşkil etmişdir.

2014-cü ilin məhsulu üçün əkilmiş 60829 hektar sahənin 2093 hektarı və ya 3,4 faizi Naxçıvan şəhərinin, 17112 hektarı və ya 28,1 faizi Şərur rayonunun, 15664 hektarı və ya 25,8 faizi Babək rayonunun, 8226 hektarı və ya 13,5 faizi Culfa rayonunun, 3932 hektarı və ya 6,5 faizi Ordubad rayonunun, 7573 hektarı və ya 12,4 faizi Kəngərli rayonunun, 2655 hektarı və ya 4,4 faizi Şahbuz rayonunun, 3574 hektarı və ya 5,9 faizi Sədərək rayonunun payına düşmüşdür.

Azərbaycan Respublikası Prezidentinin "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" 2007-ci il 23 yanvar tarixli Sərəncamına əsasən, kənd təsərrüfatı məhsulları istehsalçılarına sərf etdikləri yanacaq və motor yağlarına görə dövlət tərəfindən hər hektar sahə üçün 40 manat vəsaitin verilməsi təmin olunmuş, həmçinin hər hektar sahə üçün tələb olunan mineral gübrələrin 50 faiz güzəştlə satışı həyata keçirilmişdir ki, bu da muxtar respublikamızda kənd təsərrüfatı məhsullarının istehsalının səmərəsinin yüksəldilməsinə şərait yaratmış və məhsul istehsalçılarının bu sahəyə marağını artırmışdır.

Muxtar respublikada məhsuldar və keyfiyyətli buğda toxumlarının istehsalının stimullaşdırılması və daxili tələbatın ödənilməsi məqsədilə toxumçuluq təsərrüfatlarının yaradılması, onların maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində işlər davam etdirilir.



Cari ilin ötən dövrü ərzində yeni toxumçuluq təsərrüfatı tərəfindən 400 hektardan artıq sahədə toxumluq buğda əkini həyata keçirilmişdir. Hazırda Naxçıvan şəhərində toxumçuluq təsərrüfatı üçün yeni kompleks inşa olunmaqdadır. Muxtar respublikanın əsas toxumçuluq bazası olacaq bu kompleksdə taxılla yanaşı, həm də digər kənd təsərrüfatı bitkiləri toxumunun da satışının həyata keçirilməsi nəzərdə tutulmuşdur. Hazırda muxtar respublikada 8 toxumçuluq təsərrüfatı fəaliyyət göstərir.



2014-cü ilin məhsulu üçün muxtar respublikada 35749,7 hektar sahədə taxıl əkini aparılmışdır ki, bu da 2007-ci ildəki müvafiq göstəricidən 11761,7 hektar və ya 49 faiz çoxdur. Bu dövr ərzində buğda əkini sahəsi 8157,1 hektar artaraq 26274,1 hektara, arpa əkini sahəsi isə 3604,6 hektar artaraq 9475,6 hektara çatmışdır. Ötən dövr ərzində buğda istehsalçılarının maddi marağının artırılması məqsədilə əkilən hər hektar buğda sahəsi üçün əlavə olaraq 40 manat vəsait verilmiş, son dövrlər ərzində buğdanın yüksək qiymətlə məhsul istehsalçılarından birbaşa satın alınması və 27 min ton taxılı saxlamağa imkan verən anbarın yaradılması bu sahədə intensivliyi daha da artırmışdır. Muxtar respublika üzrə taxıl əkininin çox hissəsi – 10364,8 hektarı və ya 29 faizi Babək rayonunun, 9184,1 hektarı və ya 25,7 faizi Şərur rayonunun payına düşmüşdür.

Cari ilin məhsulu üçün muxtar respublikada 1046 hektar sahədə dən üçün qarğıdalı əkini aparılmışdır ki, bu da 2007-ci ildəki əkilmiş sahədən 357,5 hektar çoxdur. Dən üçün qarğıdalı əkininin 623 hektarı və ya 59,6 faizi Şərur rayonunun, 125 hektarı və ya 12 faizi Culfa rayonunun ərazilərində aparılmışdır.

2014-cü ilin məhsulu üçün 264 hektar sahədə dən üçün günəbaxan əkini aparılmışdır ki, bu da 2007-ci ildəki müvafiq göstəricidən 31 hektar və ya 13,3 faiz çoxdur. Dən üçün günəbaxan əkininin 113 hektarı və ya 42,8 faizi Kəngərli rayonunun, 85 hektarı və ya 32,2 faizi Babək rayonunun payına düşmüşdür.

Muxtar respublikada bitkiçiliyin əsas sahələrindən biri olan kartofçuluğun inkişafı istiqamətində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 11 aprel tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə Dövlət Proqramı (2005-2010-cu illər)" təsdiq olunmuş və bu sahə üzrə konkret fəaliyyət istiqamətləri müəyyənləşdirilmişdir. Proqramın icrası uğurla başa çatdırılmışdır. 2014-cü ilin məhsulu üçün muxtar respublikada 2962 hektar sahədə kartof əkini aparılmış və bu göstərici 2007-ci ildəki müvafiq göstəricidən 467 hektar və ya 18,7 faiz, kartofçuluğun inkişafı üzrə Dövlət Proqramının qəbulundan bir il öncəki, yəni 2004-cü ildəki müvafiq göstəricidən isə 1360 hektar və ya 85 faiz çoxdur. Kartof əkininin 752 hektarı və ya 25,4 faizi Şərur rayonunda, 573 hektarı və ya 19,3 faizi Ordubad rayonunda qeydə alınmışdır.

Muxtar respublikada əhalinin yerli meyvə və tərəvəz məhsulları ilə etibarlı təminatı istiqamətində mühüm tədbirlər həyata keçirilməkdədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq olunmuş "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" da məhz bu baxımdan strateji məqsədləri çoxcəhətli təşviq etməkdədir. Dövlət proqramının qəbulu bazar iqtisadiyyatı şəraitində muxtar respublikada meyvə və tərəvəz istehsalının inkişaf etdirilməsini, yüksək istehlak xüsusiyyətlərinə malik yeni meyvə bağlarının salınmasını, onların ixtisaslaşdırılmasını, yerli şəraitə uyğun unudulmaqda olan məhsuldar sortların bərpasını, müasir standartlara cavab verən texnologiyalar əsasında yeni meyvə və tərəvəz emalı müəssisələrinin yaradılmasını əsas məqsəd kimi müəyyənləşdirmiş və bu istiqamətdə tədbirlər hazırda davam etdirilməkdədir. Görülmüş tədbirlərin nəticəsində 2014-cü ilin məhsulu üçün muxtar respublikada 6125 hektar sahədə tərəvəz əkini aparılmışdır ki, bu da müvafiq dövlət proqramının qəbul olunduğu ildən bir il öncəki – yəni 2011-ci illə müqayisədə 81 hektar, 2007-ci ildəki müvafiq göstəricidən isə 253,5 hektar çoxdur. Tərəvəz əkininin yarısından çoxu – 1932 hektarı və ya 31,5 faizi Babək rayonunun, 1569 hektarı və ya 25,6 faizi Şərur rayonunun payına düşmüşdür. 2013-cü ilin sonuna muxtar respublikada meyvə və giləmeyvə əkmələrinin sahəsi bir il öncəyə nisbətən 93 hektar artırılaraq 4328 hektara çatdırılmışdır.

2014-cü ilin məhsulu üçün 2744 hektar sahədə ərzaq üçün bostan bitkilərinin əkini aparılmışdır. Əkin sahəsinin 1505 hektarı və ya 54,8 faizi Babək rayonunda, 471 hektarı və ya 17,2 faizi Şərur rayonunda qeydə alınmışdır.

Cari ilin məhsulu üçün muxtar respublikada 5388 hektar sahədə çoxillik və birillik otlar əkilmişdir ki, bu da 2007-ci ildəki müvafiq göstəricidən 240 hektar və ya 4,7 faiz çoxdur. 5388 hektar sahənin 5098 hektarını cari ilin çoxillik, 290 hektarını isə cari ilin birillik otları təşkil etmişdir. Əkin sahəsinin 3035 hektarı və ya 56,3 faizi Şərur rayonunun, 711 hektarı və ya 13,2 faizi Babək rayonunun payına düşmüşdür. Bundan əlavə, 2014-cü ilin məhsulu altında 4437,3 hektar sahədə əvvəlki illərdə əkilmiş çoxillik otlar qeydə alınmışdır.

Həyata keçirilən səmərəli siyasətin nəticəsi kimi 2013-cü ildə muxtar respublikada 337 milyon 127 min manat həcmində kənd təsərrüfatı məhsulu istehsal edilmişdir ki, bu da 2007-ci ildəki müvafiq göstəricidən 2,8 dəfə çoxdur. Bu dövr ərzində bitkiçilik məhsullarının istehsalı isə 3,2 dəfə artmışdır.

***Aparılan təhlillər deməyə əsas verir ki, ötən dövr ərzində muxtar respublikada meliorasiya və irriqasiya sistemlərinin yaxşılaşdırılması, torpaq və su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi, aqrar bölmənin maddi-texniki bazasının möhkəmləndirilməsi, səmərəli kredit mexanizminin qurulması, dövlət yardımlarının verilməsi və bu sahə üzrə aqrotexniki tədbirlərin səviyyəsinin yüksəldilməsi kənd təsərrüfatı sahəsinin dinamik inkişafına zəmin yaratmışdır.***

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

# “Milli dəyərlərimiz – yallı” Folklor Festivalı başa çatmışdır

***İyulun 14-də “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Azərbaycanda ali hakimiyyətə gəlməsinin 45-ci ildönümünə həsr edilmiş “Milli dəyərlərimiz – yallı” Folklor Festivalı keçirilmişdir. Tədbirin aparıcısı əvvəlcə şəhərimizin sakinlərini, qonaqları bu əlamətdar gün münasibətilə təbrik etmişdir. Qeyd edilmişdir ki, ümummilli liderin 1969-cu ildə Azərbaycanda ali hakimiyyətə gəlişindən sonra xalqımızın milli-mənəvi dəyərlərinin və folklorunun qorunub-yaşadılmasına xüsusi diqqət yetirilmişdir.***



Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Sarvan İbrahimov çıxış edərək bildirmişdir ki, 1969-cu il iyulun 14-ü ölkəmizin siyasi həyatında çox mühüm dönüş nöqtəsidir. Görkəmli dövlət xadimi, müstəqil Azərbaycan dövlətinin qurucusu ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi ölkəmizdə bütün sahələrdə uğurlu inkişafın əsasını qoymuşdur. 1969-cu ildə xalqımızın böyük oğlu Heydər Əliyevin Azərbaycanın rəhbəri seçilməsi ilə ölkəmizin ictimai-siyasi və mədəni həyatında yeniliklər, dəyişikliklər dövrü başlanmışdır. Buna görə də 1969-cu ilin 14 iyul tarixi ölkəmizin parlaq və işıqlı yolunun başlanğıc günü kimi qiymətləndirilir. Bu dövr həm də Azərbaycan elminin, təhsilinin və mədəniyyətinin intibah dövrüdür.

Nazir qeyd etmişdir ki, ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə həm də milli-mənəvi dəyərlərin qorunması, mədəniyyətimizin inkişafı üçün böyük işlər həyata keçirilmişdir. Ulu öndər Heydər Əliyev deyirdi: ***“Bizim vətəndaşlıq borcumuz milli-mənəvi dəyərlərimizə, böyük və zəngin tariximizə, millətimizə sadiq olmaqdan ibarətdir”***.




Bildirilmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” 2009-cu il 7 fevral tarixli Sərəncamı, muxtar respublikamızda 2012-ci ilin “Milli dəyərlər ili” elan olunması qədim diyarımızda xalq yaradıcılığının hərtərəfli inkişafına yeni üfüqlər açmış, xalqımızın qədim xalq yaradıcılığı ənənələrini yaşatmaq, gələcək nəsillərə çatdırmaq baxımından böyük əhəmiyyət kəsb etmişdir.

Artıq bir neçə gündür ki, muxtar respublikamızda ümummilli lider Heydər Əliyevin Azərbaycanda ali hakimiyyətə gəlişinin 45-ci ildönümünə həsr olunmuş “Milli dəyərlərimiz – yallı” Folklor Festivalının rayon turlarının keçirildiyini bildirən Sarvan İbrahimov bu gün “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində festivalın yekun tədbirinin keçirildiyini qeyd etmişdir.

Sonra qədim yallılarımızdan söhbət açan aparıcı meydana Şərur Xalq Yallı Ansamblını dəvət etmişdir. Ansamblın ifa etdiyi “Göyçəməni”, “Kafeyi”, “Dönə-dönə” yallıları alqışlarla qarşılanmışdır.

Aparıcı qeyd etmişdir ki, bu gün yallını yaşadanlar arasında uşaqlar da var ki, bu, yallının nəsildən nəslə aşılandığını, nəticə etibarilə, bu qədim el adətinin yaşadıldığını göstərir.

“Şərur qönçələri” Uşaq Yallı Ansamblı “Tirmə şal”, “Xələfi” yallılarını ifa etmişdir.

Culfa rayonunda da bu gün yallılar böyük sevgi ilə ifa olunur və yaşadılır. Saltaq kənd mədəniyyət evinin “Tənzərə” yallı kollektivinin ifasında “Tənzərə” yallısı maraqla qarşılanmışdır.

Şahbuz rayon Yuxarı Qışlaq kənd mədəniyyət evinin “Köçəri” yallı kollektivinin ifasında “Köçəri” yallısı bir daha göstərir ki, muxtar respublikanın bu bölgəsində də yallılarımız yaşadılmaqdadır.

Kəngərli Rayon Mədəniyyət Evinin “Gülüm hey” folklor qrupu da bu xalq oyununu böyük coşqu ilə ifa etmişdir.

“Milli dəyərlərimiz – yallı” Folklor Festivalı Şərur Xalq Yallı Ansamblının ifa etdiyi “Söylə” və “Urfani” yallıları ilə başa çatmışdır.

Festivalda Şərur Xalq Yallı Ansamblı 1-ci dərəcəli diplomla, Şahbuz rayon Badamlı kənd mədəniyyət evinin yallı kollektivi 2-ci dərəcəli diplomla, “Şərur qönçələri” Uşaq Yallı Ansamblı 3-cü dərəcəli diplomla mükafatlandırılmışlar. Kəngərli Rayon Mədəniyyət Evinin “Gülüm hey” folklor qrupu və Culfa rayon Saltaq kənd mədəniyyət evinin “Tənzərə” yallı kollektivi həvəsləndirici diplomlara layiq görülmüşlər.

**Əli RZAYEV**

# I və IV ixtisas qrupları üzrə qəbul imtahanı keçirilib



***İyulun 12-də Tələbə Qəbulu üzrə Dövlət Komissiyası 2014/2015-ci tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə və tam orta təhsil bazasından orta ixtisas təhsili müəssisələrinə qəbul olunmaq istəyən cari ilin məzunları üçün I və IV ixtisas qrupları üzrə qəbul imtahanı keçirmişdir.***

İmtahan Bakı, Naxçıvan, Gəncə, Sumqayıt, Mingəçevir, Şəki, Ağcabədi, Göyçay, Şirvan, Lənkəran və Xaçmaz şəhərlərində, ümumilikdə, 52 binada təşkil olunmuşdur. Qeyd edək ki, ən yaşlı abituriyent 1988, ən gənc abituriyent isə 1997-ci il təvəllüdlüdür.

İmtahan bütün binalarda eyni vaxtda – saat $11^{00}$-də başlanmış və 3 saat davam etmişdir. Muxtar respublikada Naxçıvan şəhər 1, 7 və 14 nömrəli tam orta məktəblərdə keçirilən imtahanlarda 1469 abituriyent iştirak etmişdir. İmtahana 143 nəzarətçi-müəllim, 13 imtahan rəhbəri cəlb olunmuşdur. Abituriyentlərin öz bilik və bacarıqlarını nümayiş etdirmələri üçün bütün imtahan aparılan yerlərdə normal imtahan şəraiti yaradılmışdır.

İmtahan başlamazdan əvvəl imtahan keçiriləcək məktəblərin önündə həyəcanlı görünən abituriyentlər, onların valideynləri ilə görüşüb həmsöhbət olduq. 7 nömrəli tam orta məktəbin qarşısındayıq. Culfa şəhər 3 nömrəli tam orta məktəbin məzunu Süleyman Ələkbərova yaxınlaşırıq:

– Bir azdan imtahana girəcəyəm. Həyəcanlıyam. Sınaq imtahanlarında 650-dən yuxarı bal toplayırdım. İnanıram ki, bu nəticəni qəbul imtahanında da göstərəcəyəm.

Süleymanın atası Kamal Ələkbərov deyir:

– Süleyman gecə-gündüz demədən çalışıb. Biz də burada ona dəstək olmağa gəlmişik. Təbii olaraq, valideynlər övladlarından daha çox həyəcanlıdırlar. Hər bir valideyn istəyir ki, övladı tələbə adını qazansın. Zəhmət çəkənin əziyyəti boşa getməz.

Abituriyentlərdən Səidə Novruzova IV ixtisas qrupu üzrə imtahan verəcək. O, sınaq imtahanlarında 500-dən yuxarı bal toplayıb. Həyəcanını gizlətməyərək deyir:

– Çox həyəcanlıyam. Necə sualların düşəcəyini səbirsizliklə gözləyirəm. İmtahana yaxşı hazırlaşmışam.

Naxçıvan şəhər 1 nömrəli tam orta məktəbin qarşısında həyəcanlı valideynlər, abituriyentlərlə də həmsöhbət olduq. Abituriyentlərdən Səidə Məmmədovaya yaxınlaşıram. Onun dediklərindən:

– Mən Heydər Əliyev adına tam orta məktəbin məzunuyam. Məktəbi qızıl medalla bitirmişəm. Həm məktəb kollektivi, həm də valideynlərim mənə çox güvənirlər. Çalışacağam ki, onların güvənini doğruldum.

Səidənin valideyni Aynur Hüseynova deyir:

– Bu gün qızım qədər həyəcanlıyam. Həkim olmaq arzusundadır. İmtahana çox yaxşı hazırlaşıb. Keçid balını keçəcəyinə şübhəmiz yoxdur. Ancaq istəyirik, daha çox bal toplayıb həkim olmaq arzusuna çatsın.

Saatlar $11^{00}$-i göstərəndə imtahan başlayır. İmtahan qurtarana kimi biz də imtahanda müşahidələr apardıq. Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbdə keçirilən imtahanların gedişi zamanı abituriyentlər heç bir qayda pozuntusuna yol verməyərək diqqətlərini ancaq test tapşırıqlarına yönəltdilər. Ümumiyyətlə, imtahanda təşkilatçılıq yüksək səviyyədə idi.

...Nəhayət, imtahan başa çatır. İmtahandan yenicə çıxmış Ordubad rayonunun Düylün kəndindən olan Fərid Şəfiyev, Naxçıvan şəhər 4 nömrəli tam orta məktəbin məzunu Gülsüm Abdullayeva və başqaları dedilər ki, imtahanda əsas amil olan sakitlik tam təmin edilmişdi. Bu da onların sualları dəqiq cavablandırmalarına imkan verib.

Qeyd edək ki, imtahanda təqdim olunmuş sualların düzgün cavabları TQDK-nın internet saytında yerləşdirilib. Nəticələr elan olunduqdan sonra abituriyentlər imtahan nəticələri ilə TQDK-nın internet saytında və ya iş nömrələrini bütün mobil operatorlardan 7727 nömrəsinə göndərməklə tanış ola bilərlər.

**Sara ƏZİMOVA**

## *Elan*

Naxçıvan Muxtar Respublikasında yaşayıb yaradan yaradıcı insanlar üçün yaradıcılıq imkanlarının daha da genişləndirilməsi məqsədi ilə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatı və Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsi ilə birlikdə Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi ilə əlaqədar Naxçıvana həsr olunmuş “Ulu yurdum – Naxçıvanım” müəllif mahnıları müsabiqəsi keçirir.

“Ulu yurdum – Naxçıvanım” mahnı müsabiqəsinin təşkilat komitəsi yaradılmışdır.

Müsabiqəyə 2014-cü ilin 20-25 oktyabr tarixlərində Naxçıvan şəhərində yekun vurulacaqdır.

Müsabiqədə iştirak edənlər üçün yaş məhdudiyyəti yoxdur.

Müsabiqədə peşəkar bəstəkarlarla yanaşı, həvəskar bəstəkarlar da iştirak edə bilərlər.

Müsabiqə 2 mərhələdə keçirilir.

Müsabiqədə iştirak etmək istəyənlər 2014-cü il sentyabr ayının 1-nə qədər öz mahnılarını klavir və yaxud partitura formasında təşkilat komitəsinə təqdim etməlidirlər.

Müsabiqədə qalib gələnlər mükafatlandırılacaqlar:

***“Ulu yurdum – Naxçıvanım” mahnı müsabiqəsinin təşkilat komitəsi***

## Azərbaycan Respublikası Təhsil Nazirliyi
## Naxçıvan Müəllimlər İnstitutu

*2014-2015-ci tədris ilində ibtidai sinif müəllimliyi ixtisası üzrə əlavə ali təhsil almaq üçün qiyabi şöbəyə tələbə qəbul edir*

Əvvəlki ali təhsili və hazırda (1 ildən az olmayaraq) işlədiyi vəzifəsi seçdiyi ixtisasa uyğun gələn şəxslər müvafiq qaydaya əsasən, müsabiqədə iştirak edə bilərlər.

Əlavə ali təhsil almaq istəyən şəxslər aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- rektorun adına ərizə;*
*- ali təhsil haqqında sənədin (diplomun) və qiymət kitabçasından çıxarışın (diploma əlavə) notariusda təsdiq olunmuş surətləri;*
*- 3x4 sm ölçüdə 6 ədəd fotoşəkil;*
*- sağlamlıq haqqında arayış;*
*- şəxsiyyət vəsiqəsi və diplom şəxsən təqdim olunur.*

Sənədlər 2014-cü il avqust ayının 31-dək hər gün (istirahət günlərindən başqa) saat $10^{00}$-dan $16^{00}$-dək Naxçıvan Müəllimlər İnstitutunda qəbul edilir: ikinci mərtəbə, Tədris şöbəsi.

İnstituta sənəd vermiş şəxslərdən müəyyən edilmiş qaydada müsahibə aparılır. Müsahibədən uğurla keçənlər müsabiqə yolu ilə əlavə ali təhsil üzrə tələbələr sırasına qəbul edilirlər. Təhsil haqqı müqavilə əsasında uyğun qaydada ödənilir.

***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 1, telefon: 545-79-23***

***Rektorluq***

### *İtmişdir*

Badamlı kəndindən Məmmədov Gülməmməd Hüseyn oğlunun adına 08.05.2002-ci il tarixdə verilmiş JN-24$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

* * *

Səfərli Sərxan Nazim oğlunun adına olan hərbi bilet itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, Kalbalı xan küçəsi 3 ünvanında yaşayan Səfərov Şəhriyar İbrahim oğlunun adına olan 1 inventar nömrəli texniki pasport və MH-0012381 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Ordubad rayon Yuxarı Əndəmic kənd sakini Rzayev Qadir Həmzə oğluna məxsus “Torpağın mülkiyyətə verilməsinə dair JN-307$^{A}$ nömrəli şəhadətnamə” itdiyindən etibarsız sayılır.

### *Bildiriş*

“Nil-Araz” fərdi şirkətinin (VÖEN 0200068481) hüquqi adı və təşkilati-hüquqi forması dəyişdirilərək “Qurbanoğlu” Məhdud Məsuliyyətli Cəmiyyətə çevrilmişdir.

### *Allah rəhmət eləsin*

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin kollektivi iş yoldaşları Həsən Kərimova, nənəsi
**CEYRAN XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının baş həkimi Rəhim Rəhimov və xəstəxananın kollektivi iş yoldaşları Şəmsi Əsgərova, əzizi
**NEMƏTİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**ŞƏRQ qapısı**
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Həsənov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 4020. Sifariş № 605